# Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupunun ilk iclası və brifinq

*Fevralın 28-də Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində yaradılan Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupunun ilk iclası keçirilib.*



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova** çıxışında məişət zorakılığı ilə mübarizəni gücləndirmək üçün mühüm addımlar atıldığını qeyd edib. Onun sözlərinə görə, müasir dünyanın inkişafı sürətləndikcə cinayət hallarında artım müşahidə olunur ki, bu məişət zorakılığı məsələsində də eyni hala gətirib çıxarır: "Biz insan hüquqlarının qorunmasına xüsusi önəm verdiyimiz üçün məişət zorakılığı hallarının aradan qaldırılması istiqamətində mühüm addımlar atırıq. Bu istiqamətdə monitorinq qrupları yaradılıb. Bununla yanaşı, Komitə mühüm maarifləndirici təlimlər keçirib. Bir məsələni də vurğulayım ki, biz gender bərabərliyinin qorunması ilə bağlı Milli Məclisə növbəti dəfə müraciət edəcəyik. Bu, məişət zorakılığı ilə mübarizəyə mühüm töhfə olacaq".

**Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupunun sədri Sədaqət Qəhrəmanova** bildirib ki, problemin aradan qaldırılması istiqamətində ciddi işlər görülməlidir: "2006-cı ildə bununla bağlı qanun qəbul olunsa da, vəziyyət qənaətbəxş deyildi. Sözügedən məsələ ilə bağlı hər kəs öz təmsil etdiyi müəssisədə müəyyən işlər görməlidir. Düşünürəm ki, belə olan halda məsələnin həllinə töhfə verə bilərik. Monitorinq və əlaqələndirmə qrupunun yaradılması, onun Əsasnaməsi, hüquq və vəzifələrinin müəyyənləşdirilməsi bizə məişət zorakılığı ilə mübarizəni intensivləşdirməyə imkan verir".

İclas çərçivəsində, həmçinin "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun əhatə etdiyi subyektlərin dairəsinin genişləndirildiyi qeyd olunub. Bildirilib ki, zərərçəkmiş şəxsin zorakılığı törədən şəxslə barışığa sövq edilməsi aktuallığını itirib. **Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupunun məsul katibi Rahil Süleymanzadənin** sözlərinə görə, yetkinlik yaşına çatmayan məişət zorakılığından zərərçəkmiş şəxslərin hüquqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş əsaslar olduqca təcili valideynlərindən və ya onları əvəz edən şəxslərdən alınacaq.

Daha sonra brifinq keçirilib.

Brifinqdə bildirilib ki, müxtəlif regionlarda dövlət əsaslı sığınacaqların açılması nəzərdə tutulub. **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin idarə heyətinin sədrinin müşaviri Məftunə İsmayılova** deyib ki, hazırda 1 sığınacağın açılması istiqamətində işlər görülür: "Sığınacağın yerləşmə yerinin məxfiliyi qorunur. Biz önümüzdəki dövrdə regionlarda dövlət əsaslı sığınacaqların yaradılmasını planlaşdırırıq".

Qeyd edək ki, məişət zorakılığının qarşısının alınması, məişət zorakılığından zərərçəkmiş şəxslərin təhlükəsizliyinin təmin edilməsi və onların hüquqlarının bərpası sahəsində dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi və görülən cavab tədbirlərinin monitorinqi üzrə mexanizm 2024-cü ilədək qanunvericilikdə nəzərdə tutulmamışdır. "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanuna edilən dəyişikliyə əsasən artıq bu mexanizm müəyyən edilmişdir. Qaydaya əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 iyul 2024-cü il tarixli 367 nömrəli Qərarı ilə "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası" təsdiq edilmişdir. Bu kontekstdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində və bütün yerli icra hakimiyyətləri orqanlarında tərkibi ən azı 9 nəfərdən ibarət məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupları yaradılıb.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**